# Daşıdım arandan dağa dərdimi



Gülbəniz Məcnun QIZI, *AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru*

### Bu dünya

Həyət-həyət,
bölgə-bölgə,
ölkə-ölkə kilidlənib,
kürə boyda bu dünya.
Nə artır, nə azalır,
gündə neçə dənə qətnamələr,
fərmanlar,
qərarlar yazılır.

İstər mənim olsun,
istərsə sənin,
istər bizim olsun,
istərsə sizin,
dünyaya fərq etməz.
Bu sonsuz kainat öz ölçüsündə,
biçisində,
qoca dünya öz işində.
Böyüdür cahangirlər torpağını,
gündən-günə,
ildən-ilə, yalan ilə,
böhtan ilə, hiylə ilə.
Fitnə-fəsad yuvasına çevrilib dünya,
başdan-başa riyakarlıq pərdəsinə
bürünüb dünya.

Dava gedir,
torpaq üstə,
sərhəd üstə,
pul üstə.
Bacarırsan zalımlardan haqq istə,
batıracaq məzlumların naləsini,
səsini,
boğduracaq qan gölündə bu dünya.
Azı min yol parçalanıb,
bölünüb,
milyon-milyon insan qanı tökülüb.
Dünyanın ağası mənəm deyə
bu cahanın hər qarışında xaqanlar,

sultanlar, şahlar qılınc çalıb,
at oynadıb,
son ucunda yurdsuz-yuvasız,
torpaqsız,
obasız qalıb.
Bu gün də fitnə-fəsad qurur,
xanımanlar uçurur,
körpələri beşikdəcə boğur,
bu məkrli, riyakar siyasətbazlar.
İcad edir gündə bir öldürücü silahlar,
ərşə dayanıb günahlar.
Qırmayın bir-birinizi
ey tamahkar insanlar!
Bu Yer kürəsi nə artır,
nə azalır,
gündə milyon-milyon insana,
qəbir qazılır.

### Örtüklər içində gizlənmişik biz

Örtüklər içində gizlənmişik biz.
Saçlar başın örtüyü,
sinə qəlbin örtüyü,
Ağıl hissin örtüyü,
ürək sirrin örtüyü.
Topa-topa buludlar
mavi göyün örtüyü.
Qızılgülün ləçəyi bürünüb yaşıl tülə,
zümrüd gözlü yarpaqlar
ağacların örtüyü.
Daş binalar içində
gizlənib insan oğlu,
Ağ saraylar,
hasarlar
ömrümüzün örtüyü.
Hər yer örtük içində,
bürünüb başdan-başa.
Fikrin də örtüyü var,
məqsədin də örtüyü.
Günəş ayın örtüyü,
çəmən yerin örtüyü.
Bəzən qara buludlar
hey sıxlaşıb-sıxlaşıb
örtür parlaq Günəşi.
Dili bir cür danışıb,
məkri pərdələyən var,
Üzdə süni gülüşlə
dost fikri yaradan var.
Dağların,
dərələrin,
göllərin
örtüyü var.
Ömrü bizdən qoparan
illərin örtüyü var.
Örtüklərə bürünüb
bu yer,
bu göy,
bu cahan.
Sağlığında paltarımız,
öləndə qəbrimiz
örtüyümüz.
Bu sonsuz kainatı,
canlı-cansız həyatı
xəlq eyləyən Tanrı da
gözə görünmür, əlbət,
Fəqət,



zərrədən Günəşədək
hər şeydə görünəndir,
Örtüklü dünyamızda
yalnız,
yalnız O görünəndir.

### Yaşada bilsin

Gecəni birtəhər açıb sabaha,
Ömrün bir günün də öldürdüm daha.
Hələ öldürməyə neçə günüm var?
Bu Tanrı yazısı...
bilmək çox çətin!
Ölən günlərimi üst-üstə yığıb
çevirdim aylara,
illərə,
bir ömür qazandım
ölümə çatınca.
"Ölümə çatınca" söylədim...
Neçə yol ölüb, dirildim?
Bunu Allah bilir...
Ancaq istəyirəm, son dəfə
həyata,
dünyaya
əlvida söyləyərkən
gözlərimi qapasın
ən çox sevdiyim insan!
Əllərinin istisi,
sığalı
gözlərimə çöküb qala bilsin,
məni bu vaxtsız əcəlin əlindən
ala bilsin!
Yaşayıb-yaratmaq eşqimi,
bu sonsuz kainata,
xoşbəxt həyata,
əsil insana sevgimi
qoruya bilsin!
Ölüncə mənsiz mənimlə
yaşaya bilsin!
Yarımçıq ömrümü, nigaran ruhumu
mənə qovuşunca
xatirələrdə yaşada bilsin!
Yaşada bilsin!

### Yanıb-yanıb kül oldum

Qəlbimə girən ürək,
təzə yerin mübarək!
İsti məskən tapıbsan,
sevgimin alovunda
isidirsən əlini.
Köz-köz olmuş qəlbimin
közərmiş ocağında,
əlçatmaz xəyalların
geniş asimanında
yuva qurdun özünə.
Həsrətdən gözlərimdən axan yaşlar
saralıb,
ayım itib bilinmir,
günlərim də qaralıb.
Sevdiyin çiçəklərdən miniyəm,
ya biriyəm,
fərq etmir sənin üçün,
ölüyəm,
ya diriyəm,
Könlüm evin yıxmısan,
eşqinə hədəf edib
bu ürəyi seçmisən.
Başımda min bir xülya
dolanır axşam, səhər,
uzaqlaşmaq çətindir
o qəmli baxışların
sehrli cilvəsindən.
İmdad diləyir neylim?
daş ürəkli olmağı
bacarmır dərdli könlüm.
Baxa-baxa əritdin
gözümdəki sevgini,
gilə-gilə,
damla-damla
ürəyimə axıtdın
eşqinin qəm yaşını,
göynədir göz yaşların
ürəyimin başını.
İndi nə səndə insaf,
nə məndə dözüm qalıb.
Qərar tutduğun qəlbim
xəzan təki saralıb,
Eşqinə söylədim ki,
qəlbimi tərk eyləyib
seçsin başqa bir məkan.
O sıxılıb-sıxılıb
qəlbimin qəlbindəcə
özünə yer eylədi,
Sənin eşqinin ağlı
mənim ağlımdan çoxdu.
Bilir ki, başqa yerdə mənimtək
hədəf yoxdu
Eşqinin sarayında vəfalı bir
gül oldum,
Mən biçarə aşiqəm
yanıb-yanıb
kül oldum.

### İnsan taleyi

İllərdir məhbusam sənin qəlbində,
qollarım bağlı, ətrafım zülmət,
Nə sabaha gedən yolum yox,
nə mənə ümid verən kimsəm,
Nə eşqinə əsir etdiyin bəndənə rəhmin gəlir
azad etməyə,
nə xoşbəxt etməyə divanəliyin.
Bir insan taleyi işığa həsrət,
zülmətə məhkum.
Bu sonu görünməyən məhəbbət divanında
sən biganə hakim,
mən biçarə məhkum.
Bağışlanmaz günahım-
sənə olan eşqim.
Ən ağır cəzam-
ömürlük məhəbbətinə
sadiq qalmaq.
Edam yerim-
sənin qəlbin!

### İstəyirəm

İlahi, bu dünyanın özü boyda
işıqlı göz istəyirəm,
bütün gözəllikləri görməyə.
Dünyanın özü boyda ürək istəyirəm,
sevən könülləri qəlbimin odu ilə
isidib sevməyə.
Dünyanın özü boyda köks istəyirəm,
geniş bağrıma basım bu sehrli aləmi
seyr edim doyunca.
Dünyanın özü boyda ümman istəyirəm,
yuyunam mavi suların saflığında,
fikirlər burulğanından bir an
azad olam,
bitəm sevginin təmizliyində,
duruluğunda,
tənhalığında.
Dünyanın özü boyda təmiz hava
istəyirəm,
çəkim ciyərlərimə bir udum,
sənin ətrini qoxlamaq üçün.
Dünyanın özü boyda məzar
istəyirəm,
Bəlkə, bir gün sevdiyim ləpirlər, izlər
sinə daşıma, qəlbimə toxuna bilə,
ruhumla, hissimlə, mənimlə qovuşa bilə!

### Bu karvan harda dayana, dayana

Təkcə kölgən qalıb mənim yanımda,
Qoşa addımlayır ömür yolumda.
Yoxluğunla barışmır dəli könlüm...
Milyon kərə söyləyirəm
ağlıma, hissimə,
qəlbimə, unut onu!
Keçən günlərin xəyalıyla oynama,
Əbəs yerə qalan ömrünü
yelə vermə.
Çırp ona qəlbinin qapısın
fələk taleyinin qapısını çırpan kimi.
Faydası yox!!!
Döyülməkdən, söyülməkdən
çat-çat olub yazıq könlüm!
korşalıb, kütləşib kəsərsiz bıçaq kimi.
Fəqət, enə bildiyindən əl çəkmir
bu dəli könlüm!
Sızlayan qəlbim axan göz yaşıma
sirdaş olub,
Əzir məni yoxluğunun ağırlığında.
Nə bilim vallah!!!
Qınayıram özümü,
sözümü,
səni gözləyən gözümü.
Bir ömrü qurban verdim,
yetməzmi artıq?
Səbrim tükənib...
Bacarmıram özümlə.
Hissim,
duyğum alıb məni
ağlımın əlindən,
düşüb biyabana
yana-yana.
Kömək ol, İlahi!
Bu karvan harda
dayana, dayana!

### Dərdimi

Körpə uşaq kimi tutub əlindən
Çəkirəm bağçaya-bağa dərdimi.
Dolandım dünyanı gecə sübhədək
Daşıdım arandan dağa dərdimi.

İllərdir könlümün sığalısınız,
Sanmayın qəlbimdən aralısınız,
Neyləyim, sözümdən yaralısınız,
Söylədim həm sola, sağa dərdimi.

Sapanda qoydum ki, atam uzağa,
Yığılıb üst-üstə qalandı dağa.
Dedim, yağış olub çöllərə yağa,
Demədim, başıma yağa dərdimi.

Gülbəniz, zənn etmə sığar cahana,
Zərrəsi aləmi boyayar qana,
Qoymaram bu dünya od tuta, yana,
Əkdim ürəyimdə bağa dərdimi.

2018